

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 25 (23.437)

*8 fevral 2020-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


Naxçıvan Muxtar Respublikası–96

## Naxçıvan Muxtar Respublikasının yaradılması tarixi nailiyyətdir

***Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol keçmişdir. Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır. Naxçıvan Muxtar Respublikasının yaradılması isə Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsinə çevrilmişdir.***

Naxçıvan Muxtar Respublikası çox mürəkkəb tarixi inkişaf yolu keçmişdir. Bu yolda hadisələri mürəkkəbləşdirən XIX əsrin 20-ci illərində Azərbaycan torpaqlarına köçürülən, özlərinin dövlətlərini yaratmağa cəhd edən ermənilər olmuşdur. Rusiya tərəfindən ərazi mübahisələri qızışdırılır və bunları ermənilərin xeyrinə həll etmək siyasəti aparılırdı. Azərbaycan Demokratik Respublikası dövründə ölkəmizə qarşı əsassız ərazi iddiaları bolşevik hakimiyyəti dövründə də davam etdirilirdi. Həmin illərdə Azərbaycan ilə Ermənistan arasında mübahisəli ərazilər, əsasən, Naxçıvan, Zəngəzur və Dağlıq Qarabağ idi.

Ermənilərin xülyalarının gerçəkləşməsi üçün bir sıra dövlətlər ona siyasi dəstək verməklə yanaşı, iqtisadi və hərbi yardım göstərirdilər. Azərbaycan Demokratik Respublikasının düşdüyü çətin vəziyyətlə əlaqədar o, Naxçıvana lazım olan köməyi göstərə bilmirdi. Bu vəziyyəti obyektiv qiymətləndirən Naxçıvan əhalisi, yerli ziyalılar, Müsəlman Milli Şurası bütün imkanları və qüvvələri ilə erməni daşnaklarına qarşı inadla mübarizə aparırdılar. Naxçıvanın erməni işğalına düşməsinə imkan vermir, hər vəchlə Azərbaycanın tərkibində qalmağa çalışırdılar.

1920-ci il aprelin 27-də bolşevik Rusiyası Azərbaycanı işğal edəndən sonra ermənilər Naxçıvanda daha da fəallaşdılar. Rusiya rəhbərləri Azərbaycan torpaqları hesabına Ermənistanı sovetləşdirmək istəyir və onları şirnikləndirirdi.

Ermənistanın daşnak rəhbərliyi Naxçıvanı Azərbaycandan qoparmaq üçün bütün vasitələrdən istifadə edirdi. Ermənistan hökuməti bildirirdi ki, əgər Azərbaycan Şərur-Dərələyəz qəzasından və Naxçıvan rayonundan imtina edərsə, o da, öz növbəsində, Qarabağ və Zəngəzurun Azərbaycana birləşdirilməsinə razılıq verər. Azərbaycan İnqilab Komitəsinin sədri Nəriman Nərimanov bu təklifi rədd edərək, qədim Azərbaycan torpaqları olan Naxçıvan və Culfa ərazilərinin Azərbaycana birləşdirilməsini təkidlə irəli sürürdü.

Naxçıvanın sovetləşməsi uğrunda mübarizəyə başlanıldı və daşnaklara qarşı aparılan əməliyyatlar nəticəsində 1920-ci il iyulun 28-də Naxçıvan şəhəri tutuldu. İyulun 29-da Naxçıvan İnqilab Komitəsi təşkil edildi və bu komitə Naxçıvanı Sovet Sosialist Respublikası elan etdi.

1920-ci il avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri Mirzəli bəy Bektaşov Azərbaycan SSR XKS-nin sədri Nəriman Nərimanova göndərdiyi məktubda yazırdı: “Naxçıvan xalqının böyük əksəriyyətinin qərarı ilə Naxçıvan ölkəsi özünü Azərbaycan Sovet Sosialist Respublikasının ayrılmaz hissəsi hesab edir...” Elə həmin tarixdə Sovet Rusiyası ilə Ermənistan arasında müvəqqəti saziş bağlandı və onun şərtlərinə görə Şərur-Dərələyəz qeyd-şərtsiz Ermənistana verilirdi. Qarabağ, Zəngəzur və Naxçıvan isə yenə də “mübahisəli vilayətlər” elan olunurdu. Bununla Rusiya Ermənistanı Azərbaycan torpaqları hesabına sovetləşdirmək siyasəti yürüdürdü. Nəriman Nərimanov Moskvaya göndərdiyi teleqramlarda Azərbaycanda sovet hakimiyyəti qurulana qədər mübahisəsiz sayılan vilayətlərin indi nədənsə mübahisəli sayılmasına qarşı ciddi etirazını bildirirdi. 1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında başqa bir müqavilə imzalandı. Bu müqavilədə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur və Naxçıvan Ermənistana güzəşt edilirdi. Bolşevik Rusiyası bu yolla Ermənistanda sovet hakimiyyəti qurulması üçün zəmin hazırlamaq, ermənilərin rəğbətini qazanmaq istəyirdi.



1920-ci il 29 noyabr tarixdə Ermənistan SSR yaradıldıqdan sonra Azərbaycan ərazisinə iddialar daha da artdı. Lakin Nəriman Nərimanov və onun yaxın silahdaşlarının qəti mövqeyi və prinsipiallığı sayəsində Naxçıvanı Ermənistana birləşdirmək cəhdi baş tutmadı. 1920-ci il dekabrın 2-də Gümrüdə Ermənistanın daşnak hökuməti ilə Türkiyə arasında imzalanmış müqaviləyə əsasən sonradan Naxçıvan, Şərur və Şahtaxtıda səsvermə yolu ilə xüsusi idarəçilik yaradılmalı idi və Ermənistan onun işinə qarışmamağı öz öhdəsinə götürürdü. Həmin müqaviləyə əsasən türk generalı Veysəl Ünüvar özünü müvəqqəti fövqəladə komissar elan etdi, öz dəstələri ilə Şərur da daxil olmaqla, Ermənistanla sərhəd məntəqələri tutdu. 1920-ci il dekabrın 28-də Ermənistan SSR Hərbi İnqilab Komitəsi bəyannamə ilə çıxış edərək Naxçıvanın müstəqilliyini tanıdığını elan etdi.

Naxçıvanda əhalinin narazılığı getgedə artırdı. Bununla əlaqədar Azərbaycan İnqilab Komitəsinin üzvü, ədliyyə komissarı Behbud ağa Şahtaxtinski Naxçıvana göndərildi. Naxçıvanda, Ordubadda, Şərurda və digər bölgələrdə Naxçıvanın Ermənistana verilməsinə qarşı böyük mitinqlər keçirilirdi. Əhalinin əksəriyyəti Azərbaycanın tərkibində müstəqil Naxçıvan Sovet Sosialist Respublikasının yaradılmasını tələb edirdi. 1921-ci ilin yanvar ayında Naxçıvanda onun Azərbaycan SSR tərkibinə daxil olması barədə rəy sorğusu keçirildi. Rəy sorğusu nəticəsində əhalinin 90 faizi Naxçıvan diyarının Azərbaycan SSR tərkibində qalmasına tərəfdar çıxdı.

Naxçıvan əhalisinin böyük əksəriyyətinin bir neçə illik inadlı mübarizəsi və rəy sorğusunun nəticəsi Naxçıvanın ərazi statusunu həll etdi. Rusiya tərəfi Naxçıvanın müsəlman əhalisinin iradəsi ilə hesablaşaraq, eləcə də Azərbaycan bolşeviklərinin millətsevər hissəsinin mövqeyini nəzərə alaraq Naxçıvanın öz müqəddəratını həll etmək hüququnu tanımaq məcburiyyətində qaldı.

Naxçıvanın Azərbaycanın tərkibində qalmasında Behbud ağa Şahtaxtinskinin böyük əməyi olmuşdur. Onun RSFSR XKS-nin sədri V.İ.Leninə yazdığı tarixi məktub və teleqramlarda, əlavə etdiyi arayışlarda bolşevik hakimiyyətinin Şərq siyasəti, bu zaman yol verilmiş səhvlər, Rusiya-Türkiyə münasibətlərinin qurulması və bunun Rusiya üçün əhəmiyyəti, Azərbaycan-Rusiya münasibətləri, Azərbaycanın ərazi bütövlüyü problemi, Naxçıvanın Azərbaycanın tərkibində saxlanılması və ona muxtariyyət verilməsi və başqa məsələləri çatdırmış, təklif və mülahizələrini bildirmişdi.

Bu zaman Türkiyədən gələn nümayəndə heyəti ilə də danışıqlar aparılırdı. Danışıqlarda bir sıra məsələlərlə yanaşı, Naxçıvan məsələsi də müzakirə olunurdu. Bu, müzakirələrin həm Siyasi Büroda, həm də Türkiyə-Rusiya danışıqlarında aparılması məsələnin ədalətli həllinə kömək göstərdi. 1921-ci il martın 16-da, Naxçıvanla bağlı iki mühüm qərar qəbul olundu. RK(b)P MK Siyasi Bürosu Behbud ağa Şahtaxtinskinin təklifini bəyənərək, Azərbaycanın tərkibində Naxçıvan Sovet Respublikasının yaradılması haqqında qərar qəbul etdi. Həmin gün Moskva müqaviləsi imzalandı. Bu müqavilənin üçüncü bəndinə əsasən Naxçıvan vilayəti “Azərbaycanın qəyyumluğu altında muxtar ərazi olurdu, bir şərtlə ki, Azərbaycan bu qəyyumluğu üçüncü dövlətə güzəştə getməyəcəkdir”.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan diyarının “milli sovet dövlət quruluşu” onun coğrafi və geosiyasi mövqeyi ilə əlaqədar tarixən yaranmış millətlərarası, həmçinin ərazi münasibətləri ilə müəyyən edilirdi. XX əsrin 20-ci illərində Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında həll olunmamış məsələləri nizama salmaq mühüm bir iş kimi qarşıda dururdu. Bunun üçün yeni bir konfrans çağırmaq və orada bu məsələləri həll etmək lazım idi. Razılığa əsasən belə bir konfrans Qars şəhərində keçirildi. Qars konfransı 1921-ci il sentyabrın 26-da başlayıb, oktyabrın 13-də müqavilə bağlanması ilə sona çatdı. Konfransda Moskva müqaviləsinin maddələri bir daha təsdiq edildi. Bu müqavilə ilə Naxçıvanın sərhədləri bir daha dəqiqləşdirildi və bundan sonra həmin məsələyə baxılmayacağı qərarlaşdırıldı.

Beləliklə, RSFSR hökumətinin, ingilislərin və amerikalıların ermənipərəst mövqelərinə, erməni daşnaklarının ciddi cəhdlərinə və silahlı mübarizələrinə baxmayaraq, Naxçıvan əhalisinin qətiyyəti, dönməz iradəsi, Türkiyənin prinsipial mövqeyi və Behbud ağa Şahtaxtinski kimi siyasi xadimlərin səyləri nəticəsində Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı.

1921-ci ilin sonunda Naxçıvanda sovetlərə seçkilər keçirildi. 1922-ci il yanvarın 25-də Naxçıvan SSR-in Birinci Sovetlər Qurultayı oldu. Qurultay diyarda sovet və təsərrüfat quruculuğuna dair mühüm qərarlar qəbul etdi. Naxçıvan İnqilab Komitəsi ləğv olundu, Naxçıvan İcraiyyə Komitəsi və Naxçıvan SSR Xalq Komissarları Soveti yaradıldı.

1922-ci il mayın 22-də AK(b)P MK Rəyasət Heyəti Naxçıvan diyarı haqqında Əsasnamənin və Naxçıvan SSR Konstitusiyasının layihələrinə baxdı. Əsasnamədə deyilirdi: “Naxçıvan diyarı ASSR-in qəyyumluğu altında muxtar respublika elan edilərək, Naxçıvan Sovet Sosialist Respublikası adlandırılsın”. 1922-ci ilin noyabrında RK(b)P MK Siyasi Bürosu Naxçıvan Muxtar Respublikası yaradılmasının zəruriliyi haqqında qərar qəbul etdi.

1924-cü il fevralın 9-da Azərbaycan SSR MİK-in Rəyasət Heyəti Naxçıvan diyarının Naxçıvan Muxtar Sovet Sosialist Respublikasına çevrilməsi haqqında dekret verdi. Dekretdə deyilirdi: 1. Naxçıvan ölkəsi Azərbaycan SSR-in protektoratlığında Naxçıvan SSR-ə çevrilsin. 2. Naxçıvan SSR haqqında əsasnaməni hazırlamaq üçün Vəlibəyov, Bağırov, T.Şahbazi və A.Axundovdan ibarət komissiya yaradılsın və komissiya bir həftə müddətində həmin layihəni hazırlasın. Komissiyanın hazırladığı əsasnamə 1924-cü il martın 23-də Azərbaycan MİK tərəfindən təsdiq olundu.

Ötən əsrin 80-ci illərinin axırlarında Azərbaycanın Dağlıq Qarabağ və Naxçıvan ərazilərinə erməni iddiaları yenidən baş qaldırmış, mərkəzin ikiüzlü siyasəti bu hadisələri qızışdırmışdı. Lakin 1990-cı ilin iyul ayında görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublika ərazisini erməni işğalından, muxtariyyət statusunu ləğv olunmaq təhlükəsindən xilas etdi.

Müasir dövrdə Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra, 1995-ci il noyabrın 12-də qəbul edilmiş Konstitusiyamızda Azərbaycan dövlət sistemində özünəməxsus yer tutan Naxçıvan Muxtar Respublikasının statusu müasir, yeni şəraitə uyğun olaraq dəqiq şəkildə müəyyən edilmiş, “Naxçıvan Muxtar Respublikası Azərbaycan Respublikasının tərkibində muxtar dövlət, Azərbaycan Respublikasının ayrılmaz hissəsi” hesab edilmişdir.

Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həllivacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin etmiş, regionu çiçəklənən diyara çevirmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamları ilə Naxçıvan Muxtar Respublikasının 80, 85 və 90, eləcə də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2019-cu il 21 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən Tədbirlər Planına əsasən 95 illik yubileyləri qeyd olunmuşdur. Ölkə Prezidentinin Naxçıvan Muxtar Respublikasına tarixi səfərləri, Naxçıvan Muxtar Respublikasının yaradılmasının yubileylərində proqram xarakterli çıxışlar, muxtar respublikada son illərdə görülən işlər, həyata keçirilən quruculuq tədbirləri ulu öndər Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. Ardıcıl, düşünülmüş, uzaqgörən siyasətin nəticəsində bu gün Naxçıvan öz dirçəliş dövrünü yaşayır. Muxtariyyət statusu qazanmasını və Naxçıvan Muxtar Respublikasının 96-cı ildönümünü böyük nailiyyətlərlə qeyd edir. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanır, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir”.***


**İsmayıl HACIYEV**
***AMEA Naxçıvan Bölməsinin sədri, akademik***

## Naxçıvanın Bakıdakı Daimi Nümayəndəliyində muxtar respublikanın yaradılmasının 96-cı ildönümünə həsr olunmuş tədbir olub

*Fevralın 7-də Naxçıvanın Bakıdakı Daimi Nümayəndəliyində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 96-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.*

Nümayəndəliyin rəhbəri Bəxtiyar Əsgərov tədbiri açaraq Naxçıvanın muxtariyyətinin böyük tarixi, hərbi-siyasi və diplomatik mübarizələrin nəticəsi kimi meydana çıxdığını, gərgin, çətin, eyni zamanda şərəfli bir yol keçdiyini bildirib.

Vurğulanıb ki, ümummilli lider Heydər Əliyevin bu müdrik fikirləri bütün dövrlər üçün ciddi aktuallıq kəsb edir: ***"Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük amildir. Biz bu amili qoruyub saxlamalıyıq".***




Qeyd edilib ki, ümummilli lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident cənab İlham Əliyev Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının inkişafına hər zaman böyük həssaslıqla yanaşıb, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik bu qədim diyarın muxtariyyət tarixinin öyrənilməsinin və təbliğinin zəruriliyini mühüm vəzifə kimi qarşıya qoyub.

Bildirilib ki, ötən dövr ərzində ölkəmizdə muxtariyyətin möhkəm siyasi və hüquqi bazası formalaşıb, eyni zamanda Naxçıvan böyük bir inkişaf yolu keçib. Naxçıvanın muxtariyyət statusu bu bölgənin taleyində, onun ərazisinin qorunub saxlanmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malikdir.

Daimi nümayəndəliyin rəhbəri qeyd edib ki, 1995-ci ildən etibarən Naxçıvanda həyata keçirilən hərtərəfli quruculuq siyasəti ulu öndər Heydər Əliyevin dövlətçilik konsepsiyasına əsaslanıb. Naxçıvan Muxtar Respublikası həm sosial-iqtisadi inkişaf, həm də muxtar dövlət quruculuğu baxımından regionun və dünyanın analoji siyasi sistemlərinə nümunədir, inkişafın Naxçıvan modeli artıq müstəqil Azərbaycanın tarixinə qızıl hərflərlə yazılıb. Ötən 96 il ərzində bu qədim diyarın sosial-iqtisadi sahədə böyük inkişafa nail olması, əhalinin həyat şəraitinin və güzəranının əhəmiyyətli dərəcədə yaxşılaşması, inkişafın əhali artımına və məskunlaşmaya da öz təsirini göstərməsi bu günədək qazanılan mühüm uğurlardandır.

Tədbir şair-dramaturq İftixar Piriyevin Naxçıvan Muxtar Respublikasının 96 illiyi münasibətilə ərsəyə gətirdiyi "Nurlu Naxçıvan" poeması əsasında müəllifin hazırladığı eyniadlı bədii sənədli filmin nümayişi ilə davam etdirilib.

**AZƏRTAC**

## *"Naxçıvanın muxtariyyəti: tarix və müasirlik"* mövzusunda interaktiv dərs keçilib



***Dünən Naxçıvan şəhərindəki Dövlət Bayrağı Muzeyi ilə muxtar respublikanın ümumtəhsil məktəbləri arasında "Naxçıvanın muxtariyyəti: tarix və müasirlik" mövzusunda interaktiv dərs keçilib.***

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 96-cı ildönümü ərəfəsində təşkil olunan interaktiv dərsdə AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli muxtariyyətin Azərbaycanın siyasi tarixində əhəmiyyəti, Naxçıvanın muxtariyyət statusu, inkişaf yolu və müstəqillik illərində bu qədim diyarda müxtəlif sahələrdə fasiləsiz aparılan irimiqyaslı quruculuq və abadlıq işləri haqqında məlumat verib.

Bildirilib ki, 1924-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılması bu qədim diyarın gələcək müqəddəratının həlli, ölkəmizin ərazi bütövlüyünün təmin olunması baxımından çox mühüm siyasi əhəmiyyətə malikdir. Naxçıvan Azərbaycanın əzəli və əbədi tərkib hissəsi kimi qorunub saxlanılmışdır. Bu mənada, ulu öndər Heydər Əliyevin Naxçıvanın Azərbaycan xalqının olduqca mürəkkəb bir siyasi şəraitdə əldə etdiyi muxtariyyəti böyük tarixi nailiyyət adlandırması təsadüfi deyildir.

Bildirilib ki, günbəgün gözəlləşən, tarixin canlı salnaməsinə çevrilən ulu diyarımızın bu gününü müstəqillik illərindən əvvəlki dövrü ilə müqayisə edəndə onun, sözün həqiqi mənasında, özünün yeni inkişaf mərhələsini yaşadığı aydın görünür. Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasında hərtərəfli və dayanıqlı inkişafa nail olunub, rayon mərkəzlərindən ucqar dağ kəndlərinədək genişmiqyaslı quruculuq işləri aparılıb, yeni sosial obyektlər, inzibati binalar istifadəyə verilib, istehsal sahələri yaradılıb, yeni iş yerləri açılıb, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşıb. Naxçıvanın hər bir sakini quruculuğun, sosial-iqtisadi inkişafın və davamlı yüksəlişin real nəticələrini öz gündəlik həyatında hiss etməkdədir.



*Şərur rayon Yeni Havuş kənd tam orta məktəbi*



*Ordubad rayon Vənənd kənd tam orta məktəbi*

Vurğulanıb ki, Naxçıvan muxtariyyət tarixinin 96-cı ildönümünü doğma Vətənimizə və xalqımıza qazandırdığı böyük nailiyyətlərlə qeyd edir. Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan hər gün tikilib qurularaq, ucalıb inkişaf edərək böyük sabahlara doğru inamla yol gedir. Bütün bunlar isə muxtariyyətin bəhrələri olmaqla yanaşı, həm də muxtar respublika rəhbərinin həyata keçirdiyi məqsədyönlü siyasətin məntiqi nəticəsidir.

İnteraktiv dərs muxtar respublikanın 200-dən çox təhsil müəssisəsində izlənilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

### *"İxrac ili" – 2020*

## Sahibkarlarla görüş özəl sektora göstərilən diqqətin ifadəsidir

### *"İxrac ili" onların qarşısında mühüm vəzifələr qoyur*

*Hər il olduğu kimi, bu il də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikada fəaliyyət göstərən sahibkarlarla növbəti dəfə görüşdü. Fevralın 6-da Naxçıvan Biznes Mərkəzində keçirilən görüşdə muxtar respublika iqtisadiyyatının müasir mənzərəsini özündə əks etdirən statistik göstəricilər səsləndi, sahibkarların qarşısında duran vəzifələrdən bəhs olundu. Bəs bu tədbir hansı əhəmiyyətli tərəfləri ilə seçilir?*

İlk olaraq qeyd edək ki, bu görüş mahiyyət etibarilə sosial-iqtisadi inkişafa cavabdeh olan qurumlarla yanaşı, həm də bu inkişafın əsas hərəkətverici qüvvəsi sayılan sahibkarlarla birbaşa təmas baxımından böyük əhəmiyyət daşıyır. Çünki sahibkarlar burada muxtar respublikada iqtisadi fəaliyyətin ümumi konturları haqqında lazımi məlumatları alır, istehsal olunan yeni məhsullarla tanış olur, müxtəlif təklif və təşəbbüslərlə çıxış etmək imkanı qazanırlar. Digər tərəfdən, onlar muxtar respublika rəhbəri tərəfindən birbaşa verilən tapşırıq və tövsiyələrlə yerindəcə tanış olur, gələcək fəaliyyətlərində ümumi istiqamətlərin düzgün müəyyənləşdirilməsində kollektiv təcrübədən yararlana bilirlər.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin artıq ənənəyə çevrilmiş bu təşəbbüsü həm də ona görə əhəmiyyətlidir ki, muxtar respublika rəhbəri sahibkarlarla görüşə böyük önəm verir, dövlətin hər an onların yanında olduğunu əyani şəkildə göstərir və bu görüşü dövlət-sahibkar həmrəyliyinin ən gözəl nümunəsi kimi təqdim edir. Sahibkarlar da əyani olaraq bunu gözəl başa düşürlər ki, artıq onların da daha yaxşı işləmək, milli iqtisadiyyatımıza töhfələr vermək üçün böyük potensialları var. Ali Məclisin Sədri sahibkarlarla görüşdə bu mövzuya toxunaraq bildirib: ***"…Muxtar respublikada sahibkarlığın inkişafı üçün bütün tədbirlər görülmüşdür. Qalır yaradılan imkanlardan səmərəli istifadə etmək. Aid dövlət qurumları yerli xammala əsaslanan və tələbatı ödəyən istehsal sahələrinin yaradılması istiqamətindəki səylərini artırmalı, biznes-planlar düzgün hazırlanmalı, sahibkarlıq fəaliyyətinə qanunsuz müdaxilələrə yol verilməməlidir. Sahibkarlar da onlar üçün yaradılmış işgüzar mühitdən səmərəli istifadə etməli, rəqabətqabiliyyətli və ixracyönümlü məhsul istehsal olunmalıdır.***

***2020-ci il muxtar respublikamızda "İxrac ili" olduğu üçün çalışıb buna nail olmalıyıq ki, sahibkarlıq müəssisələrinin fəaliyyəti daha da genişlənsin, yeni müəssisələr yaradılsın, iş yerləri açılsın, istehsalın və ixracın həcmi artsın".***

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun cari ilin muxtar respublikada "İxrac ili" elan olunması ilə bağlı 2020-ci il 6 fevral tarixdə imzaladığı Sərəncamda deyilir: *"Naxçıvan Muxtar Respublikasında 383 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir. Kənd təsərrüfatı və xidmət sahələrində müasir texnologiyalara əsaslanan yeni istehsal və xidmət müəssisələrinin fəaliyyətə başlaması, aqrar sənayenin inkişafının dəstəklənməsi istehsalçıların xarici bazarlara çıxışlarını və bu istiqamətdə təşviq tədbirlərinin artırılmasını zəruri etmişdir. Həyata keçirilən uğurlu iqtisadi siyasət sənayeləşmə prosesini daha da sürətləndirmiş, rəqabətədavamlı və ixracyönlü məhsullar*




*istehsal edən yeni müəssisələr yaradılmış, yerli istehsalın şaxələndirilməsi xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət təsir göstərmişdir".*

Xatırladaq ki, bu gün muxtar respublikada ümumi daxili məhsul istehsalında özəl bölmənin xüsusi çəkisi artaraq 88 faizi ötüb. Belə ki, sənaye məhsulunun 95, tikintidə görülən işlərin 85, kənd təsərrüfatının isə 98 faizi özəl bölmənin payına düşür. Ötən ilin sonlarına doğru, ilk dəfə olaraq muxtar respublikada sənaye məhsullarının istehsal həcmi 1 milyard manatı ötüb, xarici ticarət dövriyyəsinin həcmi isə yarım milyard dollara yaxınlaşıb. Bu o deməkdir ki, artıq muxtar respublika əksər tələbat malları üzrə özü-özünü təmin edir və ixrac üçün əlavə zəmin yaranır. Ötən dövrdə muxtar respublikanın ixrac potensialının artırılması istiqamətində də mühüm addımlar atılıb, bir sıra ölkələrə məhsul ixracı reallaşdırılıb. Bu ixracın hesabına son 10 ildə xarici ticarət dövriyyəsində müsbət saldo yaranıb və ötən hər il bu saldo ölçüsü müsbətə doğru dəyişməkdədir. Təbii olaraq muxtar respublikanın ixrac potensialı da ildən-ilə böyüyür. Buna görə də cari ilin "İxrac ili" elan edilməsi, bu sahədə sahibkarlar qarşısında mühüm vəzifələr qoyulması da bu potensialdan maksimum yararlanmağa hesablanıb.

Burada bir məqamı da vurğulayaq ki, məhsul ixrac etmək, sadəcə, yeni bazarlar kəşf edib ora məhsul göndərməklə tamamlanmır. Nəzərə almalıyıq ki, Naxçıvan Muxtar Respublikasının MDB məkanı xaric, istər hazırda idxal-ixrac əməliyyatları apardığı bir çox ölkələr, istərsə də sonradan əlaqə yaradacağı regionların əksəriyyəti doymuş bazarlara malikdir. Bu cür bazarlarda niş sektorların müəyyən edilməsi və yaxud yerli ixrac məhsullarının özünə istehlakçı kütləsi qazanması çox diqqətli marketinq strategiyası həyata keçirməyi tələb edir. Çünki məhsul ixrac etmək asandır, bu ixracın davamlılığını qorumaq isə çətin. Son illərdə bu cür əməliyyatlarda daha çox müşahidə edilən tendensiyalardan biri də budur ki, idxalçı ölkə məhsulu həm də ona görə idxal edir ki, özü də sənə ixrac potensialı kimi baxsın. Bu mənada, yerli sahibkarlarımızın qarşısında mühüm vəzifələr durur. Ancaq inanırıq ki, dövlətin bu sahəyə davamlı dəstəyi sahibkarlarımızın yeni bazarlar və bu bazarlarda uğur qazanmalarına imkan verəcək.

**✍ Səbuhi HƏSƏNOV**

## Pensiyaların sığorta hissəsi artırılıb

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Əmək pensiyalarının sığorta hissəsinin indeksləşdirilməsi haqqında" 2020-ci il 6 fevral tarixli Sərəncamı pensiyaçıların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan növbəti addımdır. Həmin sərəncama əsasən əmək pensiyalarının sığorta hissəsi 2019-cu il üzrə orta aylıq nominal əməkhaqqının Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən illik artım tempinə uyğun olaraq 16,6 faiz artırılacaqdır.

Artımlar muxtar respublika üzrə 48 mindən artıq əmək pensiyaçısına şamil ediləcəkdir. Sərəncamın icrası məqsədilə Dövlət Sosial Müdafiə Fondu publik hüquqi şəxsi, onun şəhər və rayon şöbələri tərəfindən müəyyən işlər görülür.

Muxtar respublikada indeksləşmə qısa müddət ərzində yekunlaşdırılaraq bütün növ əmək pensiyaları üzrə hesablanmış artımlar yanvar ayının artımları da daxil olmaqla 2020-ci il fevral ayının pensiya ödənişində əmək pensiyaçılarına ödəniləcəkdir. Həmçinin Dövlət Statistika Komitəsi tərəfindən müəyyən edilən istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq muxtar respublika üzrə fərdi uçot sistemində qeydiyyatda olan sığortaolunanların fərdi hesabının sığorta hissəsində toplanmış pensiya kapitalı məbləğləri də yanvarın 1-dən indeksləşdirilməklə 2,6 faiz artırılacaqdır.

***Naxçıvan Muxtar Respublikası Dövlət Sosial Müdafiə Fondunun mətbuat xidməti***



*Dövlət proqramı necə icra olunur*

# Turizmin inkişafına dövlət dəstəyi göstərilir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə qəbul olunmuş "2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı" bu sahədə yeni mərhələnin əsasını qoymuşdur.***

2019-cu ildə muxtar respublikanın turizm potensialı ilə bağlı məlumatların sosial şəbəkələrdə yerləşdirilməsi və onların daim yenilənməsi sahəsində işlər davam etdirilmişdir. Ötən il İqtisadiyyat Nazirliyi tərəfindən muxtar respublikada yeni fəaliyyətə başlayan sahibkarlar üçün maarifləndirici kurslar təşkil olunmuş, 50 sənətkarın muxtar respublikanın tarixi-memarlıq abidələrini və milli ornamentləri özündə əks etdirən 338 əl işi Naxçıvan Biznes Mərkəzinin satış obyektlərinə göndərilmiş və onlardan 308-nin satışı həyata keçirilmişdir. Bununla yanaşı, Xalq Yaradıcılığı Emalatxanasında və Cəlilkənd buxanasında xalçatoxuma, misgərlik, Yengicə kəndindəki Şərq hamamında sənətkarlıq və xidmət sahələrinin yaradılması təmin edilmişdir. Cəlilkənd buxanasında il ərzində 44 xalça toxunmuşdur. 2019-cu ildə keçirilmiş 31 beynəlxalq tədbirdə muxtar respublikadan 115 sahibkarlıq subyektinin 122 nümayəndəsinin iştirakı təmin edilmişdir.



Muxtar respublikada ailə təsərrüfatlarının fəaliyyətlərinin stimullaşdırılması istiqamətində Naxçıvan Biznes Mərkəzinin sərgi salonunda 45 ailə təsərrüfatında istehsal olunan 108 çeşiddə 140 məhsulun nümayişi təşkil olunmuş, 69 nümunəvi təsərrüfatda istehsal olunan müxtəlif çeşidli məhsulları əks etdirən "Ailə təsərrüfatı məhsullarının kataloqu" hazırlanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 29 noyabr 2018-ci il tarixli Sərəncamına əsasən yaradılmış Ağbulaq Kənd Turizm-İstirahət Bölgəsində müvafiq infrastrukturun qurulması, həmçinin Xizək kompleksinin yaradılması ilə bağlı Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində, sosial şəbəkələrdəki qrup və səhifələrində həmin bölgənin təbliği istiqamətində ardıcıl işlər görülmüşdür.

Naxçıvan Muxtar Respublikası Turizm Departamentinin əməkdaşları tərəfindən Şahbuz rayonunun Ağbulaq və Kükü kəndlərində turist qəbul edə biləcək və gələcəkdə hostel kimi istifadə ediləcək 8 fərdi yaşayış evi müəyyənləşdirilmiş, aprel ayında həmin hostellərin təqdimatı keçirilmiş, qanunvericiliyə uyğun olaraq sertifikat və VÖEN-lər hazırlanaraq müvafiq evlərin sahiblərinə təqdim olunmuşdur. Naxçıvan Turizm İnformasiya Mərkəzinin rəsmi internet səhifəsində xüsusi bölmə yaradılaraq həmin evlər haqqında ümumi məlumat və fotoşəkillər yerləşdirilmişdir. Bununla yanaşı, Naxçıvan şəhərində turizmin inkişafına geniş meydan açan "Saat Meydanı" turistik istirahət mərkəzi istifadəyə verilmiş, Culfa rayonunda Darıdağ arsenli su müalicə və istirahət kompleksinin yaradılması istiqamətində işlər davam etdirilmişdir.

Ötən dövrdə "Turizm xidmətləri. Mehmanxana və mehmanxanatipli yerləşdirmə vasitələrinə tətbiq olunan minimal tələblər" mövzusunda bu sahədə fəaliyyət göstərən təsərrüfat subyektlərinin nümayəndələri üçün treninq keçirilmiş və aid standartlar təqdim olunmuşdur.

Naxçıvan Muxtar Respublikasının Dövlət Nəqliyyat Xidməti tərəfindən muxtar respublikada taksi fəaliyyəti göstərən sürücülərin muzeylərdə olması və maarifləndirilməsi işi təşkil edilmişdir. Türkiyə Respublikasının əksər böyük şəhərlərinə beynəlxalq sərnişindaşıma xidməti göstərən marşrutların fəaliyyətinə nəzarət artırılmışdır. Ağbulaq İstirahət Mərkəzi, Duzdağ Fizioterapiya Mərkəzi və Uzunoba çimərliyi üzrə avtobus marşrutlarının fəaliyyəti davam etdirilmiş, həmçinin 18 may 2019-cu il tarixdən etibarən "Naxçıvan-Əshabi-kəhf-Naxçıvan" xətti üzrə yeni marşrut fəaliyyətə başlamışdır.





Naxçıvan Muxtar Respublikasının Dövlət Gömrük Komitəsi tərəfindən sərhəd-keçid məntəqələrində, eləcə də Naxçıvan Beynəlxalq Hava Limanında quraşdırılan elektron məlumat lövhələrində turistləri maraqlandıran məlumatlar, diyarımızın görməli yerlərinin fotoslaydları yerləşdirilmişdir. Həmçinin gömrük orqanlarındakı infoköşklərdə muxtar respublikanın muzeyləri, tarixi abidələri və turizm obyektləri ilə bağlı videoçarxların nümayişi həyata keçirilməkdədir. Naxçıvan Beynəlxalq Hava Limanında turistlərin gömrük sərhədindən keçməsini asanlaşdırmaq məqsədilə gömrük qanunvericiliyinə uyğun olaraq bəyanetmənin yaşıl və qırmızı kanallar vasitəsilə həyata keçirilməsi üçün müvafiq şərait yaradılmışdır. Həmçinin Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin "Naxçıvan" Əlahiddə Sərhəd Diviziyası tərəfindən Sərhəd Nəzarət məntəqələrində şəxslərin sürətli keçidini təmin etmək məqsədilə "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış "İAMAS" məlumat-axtarış sisteminin mövcud təminat proqramında rəsmiləşdirilməsi proseduru sadələşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 noyabr tarixli Qərarına əsasən ötən ilin 1 dekabrından muxtar respublikaya səfər edən İran İslam Respublikası vətəndaşlarına rəsmiləşdirilən 15 günlük giriş icazələri və birdəfəlik giriş vizaları ləğv olunmuşdur. Azərbaycan Respublikasının digər bölgələrinə səfər etmək istəyən İran vətəndaşları isə Naxçıvan Beynəlxalq Hava Limanında yerləşən viza bölməsindən sadələşdirilmiş qaydada birdəfəlik giriş vizaları əldə edə bilirlər.

2019-cu il ərzində "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində keçirilən "Kətə", "Göycə", "Arıçılıq məhsulları – bal" və "Ailə təsərrüfatı məhsulları" festivallarında yerli məhsulların, milli dəyərlərimizi təbliğ edən əl işlərinin və sənətkarlıq nümunələrinin sərgi-satışı təşkil olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığı ilə Naxçıvan şəhər buxanasında təmir-abadlıq işləri aparılmış, Buxana "Naxçıvan mətbəxi" Kulinariya Mərkəzinin tabeliyinə verilmişdir. Mərkəzin əməkdaşları tərəfindən "Naxçıvanın milli mətbəxi" mövzusunda Naxçıvan Dövlət Universiteti və Naxçıvan Qızlar Liseyində vaxtaşırı olaraq seminar və praktik məşğələlər keçirilmişdir. Hazırda *www.nakhchivancuisine.az* saytının hazırlanması ilə bağlı iş aparılır.

2018-ci ildə tarixi abidələrin bərpa və tədqiq olunması, onlar haqqında "Naxçıvan türbələri", "Naxçıvan imamzadələri", "Naxçıvan hamamları", "Naxçıvan buxanaları" və "Qarabağlar Türbə Kompleksi" kitablarının nəşri turistlərə xalqımızın qədim tarixi, həyat tərzi və mədəniyyəti barədə ətraflı məlumatın verilməsi baxımından çox əhəmiyyətli olmuşdur.

Ötən dövrdə kadr hazırlığı da diqqətdə saxlanılmış, Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən "Peşəkar ofisiant" layihəsi hazırlanmış və 1 dekabr 2019-cu il tarixdən etibarən layihədə iştirak üçün sənəd qəbuluna start verilmişdir. Ordubad Texniki Peşə və Sürücülük Məktəbində və Naxçıvan Şəhər Peşə Liseyində "Turizm agenti" ixtisası üzrə peşə kursları davam etdirilmiş, bu ixtisas üzrə Ordubad Texniki Peşə və Sürücülük Məktəbində 19, Naxçıvan Şəhər Peşə Liseyində 14 olmaqla, ümumilikdə, 33 müdavim peşə kurslarını müvəffəqiyyətlə başa vuraraq sertifikat almışdır. Hazırda Ordubad Texniki Peşə və Sürücülük Məktəbində Turizm agenti ixtisası üzrə 21 nəfər təhsilini davam etdirir.

2019-cu ildə reklam-informasiya materiallarının hazırlanması davam etdirilmiş, Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti tərəfindən Duzdağ Fizioterapiya Mərkəzinin və Darıdağ Arsenli Su Müalicə və İstirahət Kompleksinin bukletləri, Naxçıvan şəhərinin turist xəritəsi və Naxçıvan Muxtar Respublikasının Dini Turizm Xəritəsi hazırlanaraq Naxçıvan Turizm İnformasiya Mərkəzinə gələn turistlərə təqdim edilmişdir. "Naxçıvan Muxtar Respublikasının Bələdçi Kitabı"nın hazırlanması istiqamətində işlər davam etdirilir.

Bakı şəhərində keçirilmiş 3-cü Qlobal Sağlamlıq Turizm Forumu, Qlobal Sağlamlıq Turizm Şurasının 5-ci Assambleyasında və bir sıra xarici turizm sərgilərində muxtar respublikamız da təmsil olunmuş, bu tədbirlərdə diyarımızın turizm potensialının geniş şəkildə təbliği məqsədilə videoçarxlar nümayiş edilmiş, turizm təbliğat materialları iştirakçılara təqdim olunmuşdur.

Ötən il Ağbulaq İstirahət Mərkəzində muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələrin qış və yay məktəbləri, həmçinin dövlət qulluqçuları və onların ailə üzvlərinin istirahəti təşkil edilmişdir.

Naxçıvan Turizm İnformasiya Mərkəzində internet resurslarından səmərəli istifadə edilməklə mərkəzin internet səhifəsi muxtar respublikanın turizm imkanlarını əks etdirən materiallarla zənginləşdirilmiş, hazırlanmış videoçarxlar mərkəzin sosial şəbəkələrdəki səhifələrində yayımlanmışdır. Həmin səhifələrə 773 məlumat daxil edilmiş, 415 min 400 baxış sayı qeydə alınmışdır.

***Görülmüş işlərin və yaradılmış müasir infrastrukturun nəticəsi olaraq 2019-cu ildə Naxçıvan Muxtar Respublikasına ölkəmizin digər bölgələrindən və xarici ölkələrdən, ümumilikdə, 415 min 932 turist gəlmişdir. Dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası cari ildə də diqqətdə saxlanılacaqdır.***

***Naxçıvan Muxtar Respublikasının Turizm Departamenti***

## "Nağdsız ödəyin, hədiyyə qazanın!" tədbirinin qalibləri mükafatlandırılıb

Naxçıvan Muxtar Respublikasında ənənə halını almış "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı həvəsləndirici tədbirin ikinci tirajının qalibləri müəyyənləşib. 2019-cu il iyulun 1-dən 2020-ci il yanvarın 1-dək daha çox nağdsız ödənişlər edən muxtar respublika sakinləri bu tirajın nəticələrinə görə qiymətli hədiyyələrlə mükafatlandırılıblar. Hədiyyə qazanmış şəxslər təhsil, səhiyyə, mədəniyyət, dövlət qulluğunun ayrı-ayrı sahələrində, hüquq-mühafizə orqanlarında, özəl sahələrdə çalışan işçiləri, sadə vətəndaşları və təqaüdçüləri əhatə edir.

Dünən Naxçıvan Biznes Mərkəzində bununla bağlı keçirilən tədbirdə Naxçıvan Muxtar Respublikası Dövlət Vergi Xidmətinin rəis müavini, baş vergi xidməti müşaviri Fərrux Əkbərov çıxış edərək "2019-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında rəqəmsal ödəniş xidmətlərinin tətbiqinin və nağdsız hesablaşmaların genişləndirilməsi üzrə Proqram"ın icrasının uğurla davam etdirildiyini bildirib.



Qeyd edilib ki, nağdsız əməliyyatların rahat həyata keçirilməsi üçün muxtar respublika ərazisində POS-terminallar, əsasən, vətəndaşların daha çox üz tutduqları ticarət, iaşə, digər xidmət sahələrində, o cümlədən sığorta haqlarının ödənilməsi üçün sığorta agentliklərində, kommunal xərclərin ödənilməsi üçün yerli poçt şöbələrində quraşdırılıb. 1 yanvar 2020-ci il tarixə muxtar respublikada POS-terminalların sayı 1278-ə çatdırılıb.

Vurğulanıb ki, təkcə 2019-cu ilin birinci yarımilində 398 şəxsə 25 min manat dəyərində müxtəlif qiymətli hədiyyələr təqdim olunub. Ümumilikdə, 2014-cü ildən başlayaraq keçirilən 11 tirajda 2577 vətəndaşa 165 min manat dəyərində müxtəlif həvəsləndirici hədiyyələr verilib. "Nağdsız ödəyin, hədiyyə qazanın!" adlı tədbirin 12-ci tirajında 412 şəxsə 25 min manat dəyərində hədiyyələr təqdim ediləcəkdir.

Tədbirdə çıxış edən Mərkəzi Bankın Naxçıvan Muxtar Respublikası İdarəsinin sədr müavini Orxan Abdullayev qeyd edib ki, nağdsız ödənişlərə marağın gündən-günə artması statistik rəqəmlərdə də müşahidə olunur. 2019-cu ilin yanvar-dekabr aylarında POS-terminal və digər ödəniş vasitələri ilə aparılan nağdsız əməliyyatların həcmi 45 milyon 550 min 608 manat təşkil edib. 2018-ci ilin müvafiq dövrü ilə müqayisədə, 10 milyon 457 min 258 manat artım qeydə alınıb. Nağdsız ödənişlərin 14 milyon 717 min 545 manatı POS-terminallar vasitəsilə, 30 milyon 833 min 63 manatı isə internet və digər ödəniş vasitələri üzərindən icra edilib.

Sonra nağdsız ödənişlər sahəsində fəallıq göstərən şəxslərə hədiyyələr təqdim olunub.

Qeyd edək ki, analoji tədbirlər Naxçıvan şəhəri ilə yanaşı, muxtar respublikanın rayonlarında da keçiriləcək.

**✍ Əli CABBAROV**

## "Qış məktəbi"nə start verilib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondunun Himayəçilik Şurası, Gənclər və İdman Nazirliyi, Gənclər Fondu, Həmkarlar İttifaqları Şurası və Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin birgə təşkilatçılığı ilə Ağbulaq İstirahət Mərkəzində muxtar respublikanın fəal gənclərinin iştirakı ilə növbəti "Qış məktəbi"nə start verilib.



Muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri ilk gün istirahət mərkəzi ilə yaxından tanış olub, stolüstü oyunlarda iştirak ediblər. Günün ikinci yarısında "Vətəni tanı" intellektual oyununun ilk mərhələsi keçirilib. Günün sonunda gənclər üçün film nümayiş etdirilib.

Fevralın 9-da başa çatacaq "Qış məktəbi"ndə gənclər "Axtar tap" və "Xəmsə" intellektual yarışlarında, eləcə də stolüstü oyunlarda qüvvələrini sınayacaqlar. Həmçinin "Gənclərdə büdcə savadlılığı" mövzusunda seminarda və "Özgüvənin həyatımızda rolu" mövzusunda fərdi inkişaf təlimində də iştirak edəcəklər. Eyni zamanda məktəb iştirakçıları arasında fotomüsabiqənin də keçirilməsi nəzərdə tutulub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Seçki marafonu

Parlament seçkiləri – 2020

**9 fevral 2020-ci il Azərbaycan Respublikası Milli Məclisinə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinə növbədənkənar seçkilər günüdür.**

**Azərbaycan Respublikasının Milli Məclisinə seçkilər muxtar respublikada 7 seçki dairəsi üzrə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər isə 45 seçki dairəsi üzrə keçiriləcəkdir.**

### Seçki məntəqəsinin açılması

Seçki günü səhər saat $7^{00}$-dan gec olmayaraq MnSK-nın üzvləri seçki məntəqəsini səsvermə prosesinə hazırlamaq üçün toplaşırlar. MnSK-nın bütün üzvləri işə hazır olmalıdırlar. Seçki məntəqəsi açılmazdan əvvəl MnSK-nın sədri komissiya üzvləri arasında aparılan vəzifə bölgüsünü təsdiqləyir və onlar öz iş yerlərini tuturlar. MnSK üzvlərinin vəzifə bölgüsü sədrin razılığı ilə komissiya üzvlərinin fikirləri nəzərə alınmaqla dəyişdirilə bilər. Seçki məntəqəsinin açılışına hazırlıq üçün sədr və ya onu əvəz edən komissiya üzvü aşağıdakı tapşırıqları verir:

***• Seçki materiallarının və avadanlıqlarının hazırlanması***

MnSK-nın üzvləri seçki məntəqəsində işin təşkilinə cavabdehdirlər. Səsvermə kabinələri və müvafiq məlumat lövhələri düzəldilməli, səsvermə qaydasına dair təlimat plakatları divara vurulmalı və səsvermə kabinələrində yerləşdirilməli, MnSK-nın möhrü, gözəgörünməyən mürəkkəb balonları, ultrabənövşəyi lampa, batareyalar, səsvermə üçün zəruri olan material və avadanlıqlar hazırlanmalıdır.

***• Səsverməyə dair təlimat və məlumat plakatları***

MnSK-nın sədri səsvermə otağında asılmış seçki bülleteninin doldurulmasına dair izahın səsvermə kabinəsində də yerləşdirilməsini təmin etməlidir. O, səsvermə saatlarında həmin plakatların yerində olmasını müntəzəm surətdə yoxlamalıdır.

***• Təşviqat materiallarının seçki məntəqəsindən çıxarılması***

MnSK-nın üzvləri səsverməyə 24 saat qalmış seçicilərin maarifləndirilməsi üçün nəzərdə tutulan məlumatlar istisna olmaqla, bütün təşviqat materiallarını səsvermə otağının daxilindən və xaricindən çıxarmalıdırlar.

***• Akkreditasiyanın yoxlanılması***

MnSK-nın katibi seçki məntəqəsinə gəlmiş bütün müşahidəçilərin akkreditasiyasını və qeydə alınmış namizədlərin, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin, siyasi partiyaların səlahiyyətli nümayəndələrinin, vəkil edilmiş şəxslərinin və KİV nümayəndələrinin lövhəciklərini yoxlamalıdır.

***• DSK-dan alınmış seçki bülletenlərinin sayılması və qeydiyyatı***

Səsvermə başlanmazdan əvvəl MnSK-nın üzvləri buna hüququ olan şəxslərin müşahidəsi ilə seçki bülletenlərini sayır, onların hər birinin MnSK tərəfindən əvvəlcədən möhürləndiyini yoxlayır (bülletenlər Azərbaycan Respublikası Milli Məclisinə seçkilər üzrə Azərbaycan Respublikası Seçki Məcəlləsinin 99.6-cı, lakin Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər üzrə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinə seçkilər haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun 86.6-cı maddəsinə uyğun olaraq DSK-dan alındıqdan sonra onların üz tərəfinin yuxarı sağ küncü MnSK-nın möhürü ilə möhürlənir) və bu barədə akt tərtib edirlər. Seçki bülletenlərinin sayı dəqiqləşdirildikdən sonra MnSK-nın sədri onların sayını elan edir. Bu məlumat səsvermənin nəticələri haqqında protokolun qaralama nüsxəsinin 3-cü bəndinə daxil edilir.

***• Seçki qutularının hazırlanması***

Səhər saat $7^{50}$-də MnSK-nın sədri seçki məntəqəsini açıq elan edir, boş seçki qutularını seçki komissiyasının üzvlərinə, seçki məntəqəsində olan müşahidəçilərə göstərir, onları bağlayır, fərdi nömrələnmiş və təhlükəsizlik üçün nəzərdə tutulmuş birdəfəlik plastik kilidlərlə bağlayır. Sədr həmin kilidlərin fərdi nömrələrini elan edir.

Bu nömrələr MnSK-nın müvafiq aktında qeyd olunur. Səsvermə günü seçki qutuları müşahidəçilərin və MnSK üzvlərinin maneəsiz daim müşahidə edə biləcəyi yerdə yerləşdirilməlidir.

***• Mürəkkəb və ultrabənövşəyi lampaların yoxlanılması***

Mürəkkəb və ultrabənövşəyi lampalar seçki məntəqəsi açılmazdan əvvəl müşahidəçilərin müşahidəsi ilə yoxlanılır. Yoxlama səsvermə otağında, MnSK üzvlərinin birinin çeçələ barmağında aparılır və mürəkkəb balonları səsvermə otağında, masanın üstündə, hamının sərbəst görə biləcəyi yerdə saxlanılır.

***• Səsvermənin yekunları barədə məlumatları göstərmək məqsədilə böyüdülmüş protokol nümunələrinin asılması***

Səsvermə otağında səsvermənin yekunları barədə məlumatları göstərmək məqsədilə səsvermənin yekununa dair böyüdülmüş protokol nümunələri asılmalıdır.

***• Səsvermənin başlanmasının elan edilməsi***

Səhər $8^{00}$-da MnSK-nın sədri səsvermənin başlanmasını ucadan elan edir.

**Səsvermə günü seçki məntəqəsində kimlər ola bilər:**

• MnSK-nın üzvləri;

• Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyasının üzvləri;

• qeydə alınmış namizədlər, onların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, siyasi partiyaların səlahiyyətli nümayəndələri və vəkil edilmiş şəxsləri, akkreditasiyadan keçmiş beynəlxalq və yerli müşahidəçilər;

• KİV nümayəndələri;

• seçicilər (o cümlədən səsvermənin həyata keçirilməsi zamanı yardıma ehtiyacı olan seçicilərə kömək edən şəxslər).

**YADDA SAXLA!**
**Səsvermə günü ərzində siz seçki məntəqəsini tərk etməməlisiniz. Səsvermə günü seçki məntəqəsində siqaret çəkmək və spirtli içki içmək qəti qadağandır.**

**Zəruri hallarda aşağıdakı şəxslər də ola bilərlər:**

• səsvermə hüququnu həyata keçirən zaman və ya MnSK-nın sədrinin dəvəti ilə yalnız ictimai asayişi bərpa etmək üçün xidməti geyim formasında olan polis işçiləri;

• müvafiq mütəxəssislər (MnSK sədrinin dəvəti ilə yalnız texniki problemləri həll etmək üçün);

• zəruri yardıma ehtiyac olan hallarda kömək üçün dəvət edilən mütəxəssislər (təcili tibbi yardım, yanğınsöndürmə və sair üzrə mütəxəssislər).

Onlar vəzifələrini icra edən kimi seçki məntəqəsini tərk etməlidirlər.

### Səsvermə prosesi

Seçici səs vermək üçün şəxsiyyət vəsiqəsini və ya onu əvəz edən müvafiq sənədi təqdim etməlidir.

***Seçicini qarşılayan və barmağının mürəkkəblə işarələnməsini yoxlayan MnSK-nın üzvü:***

• seçki məntəqəsinə gələn hər bir seçicini səsvermə otağının girişində salamlayır;

• seçicilərin şəxsiyyətini təsdiqləyən müvafiq sənədini yoxlayır;

• ultrabənövşəyi lampa vasitəsilə seçicinin sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsinin gözəgörünməyən mürəkkəblə işarələnib-işarələnmədiyini yoxlayır və yəqin edir ki, seçici səs verməyib. Ultrabənövşəyi işıq seçicinin sol əlinin baş barmağı boyunca salınmalıdır;

• əgər seçicinin barmağı artıq mürəkkəblə işarələnmişsə, MnSK-nın üzvü ondan dərhal məntəqəni tərk etməsini tələb edir və seçicinin bu tələbi yerinə yetirməsinə əmin olur;

• hər bir seçicidən səsvermə prosesinə aid sualı olub-olmamasını soruşur;

• barmağında mürəkkəb olmayan seçiciyə məlumat lövhəsinə və sonra bülleten verən və seçicinin barmağını mürəkkəblə işarələyən MnSK-nın üzvünə yaxınlaşmağı tövsiyə edir.

**Səs vermək üçün seçici aşağıdakı sənədlərdən birini təqdim etməlidir:**

1. Azərbaycan Respublikasının vətəndaşları üçün:

**- şəxsiyyət vəsiqəsi.**

2. Qaçqın və məcburi köçkün vətəndaşlar üçün:

**- 1-ci bənddə göstərilən şəxsiyyətlərini təsdiq edən sənəd yoxdursa, Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi tərəfindən müəyyənləşdirilmiş formalı vəsiqə.**

3. Həqiqi və ya müddətli hərbi xidmətdə olan hərbi qulluqçular üçün:

**- zabitin şəxsi vəsiqəsi;**

**- hərbi bilet.**

4. Barələrində həbs növündə qətimkan tədbiri seçilərək istintaq təcridxanalarında saxlanılan təqsirləndirilən şəxslər üçün:

**- Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş təqsirləndirilən şəxsin şəxsiyyətini təsdiq edən sənəd.**

5. Azadlıqdan məhrumetmə yerlərində və xüsusi müəssisələrdə cəzaçəkən məhkumlar üçün:

**- Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən verilmiş məhkumun şəxsiyyətini təsdiq edən sənəd.**

**YADDA SAXLA!**
**Seçki prosesində yuxarıda göstərilən sənədlərdən başqa, digər sənədlərdən istifadə olunması yolverilməzdir.**

***Seçicinin barmağını mürəkkəblə işarələyən və bülleten verən MnSK-nın üzvü:***

• seçicinin adını və soyadını soruşur və şəxsiyyətini təsdiq edən müvafiq sənədi təqdim etməyi ondan xahiş edir;

• seçicinin adını seçicilər siyahısında tapır;

• təqdim olunmuş şəxsiyyəti təsdiq edən sənədin seriyası və nömrəsini seçicilər siyahısında seçicinin adı qarşısında qeyd edir;

• seçiciyə sol əlinin baş barmağının gözəgörünməyən mürəkkəblə işarələnməsini təklif edir;

**YADDA SAXLA!**
**Barmağının mürəkkəblə işarələnməsinə etiraz edən seçiciyə seçki bülleteninin verilməyəcəyi izah edilir. Əgər seçici fikrini dəyişməzsə, ondan seçki məntəqəsini tərk etməsi xahiş olunur. Bu barədə seçici siyahısında "işarələnmədən imtina etdi" qeydi aparılır.**

• seçici razılaşarsa, onun sol əlinin baş barmağının dırnaq və dərisinin bir hissəsini gözəgörünməyən mürəkkəblə işarələyir və işarələndiyini yəqin edir. O, seçicini təlimatlandırır ki, mürəkkəb quruyanadək barmağına toxunmasın;

• seçiciyə möhürlənmiş seçki bülleteni verir. Seçki bülletenini seçiciyə verərkən bülletenin nömrələnmiş yuxarı sol küncünü kəsir və özündə saxlayır;

• adı seçicilər siyahısında olan seçicidən siyahıda adının qarşısındakı "seçicinin seçki bülletenini alması haqqında imza" qrafasında imza etməsini xahiş edir;

• seçicini boş səsvermə kabinəsinə keçib seçki bülletenində namizədlərin soyadlarından sağdakı kvadratlarda seçiləcək namizədə səs verdikdən sonra bülleteni qatlaması və seçki qutusuna salaraq seçki məntəqəsini tərk etməsi barədə təlimatlandırır.

**YADDA SAXLA!**
**Hər seçici seçicilər siyahısında imza edərək yalnız bir seçki bülleteni alır və onda işarə qoyur. Seçicilər seçki bülleteninə işarəni səsvermə kabinəsində gizli şəkildə qoymalıdırlar. Seçki məntəqəsində seçki axınına diqqət yetirilməlidir. Səsvermə kabinəsində seçici səs verərkən digər seçicinin kabinəyə daxil olmasına imkan verilməməlidir!**

***MnSK-nın seçki qutusunun mühafizəsi üçün cavabdeh üzvü:***

• o, seçicinin seçki bülletenini qatlayaraq seçki qutusuna salmasına əmin olur;

• səs vermiş seçicidən seçki məntəqəsini tərk etməsini xahiş edir.

*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti*

### Naxçıvan Muxtar Respublikasının Dövlət Energetika Xidməti üzrə 2020-ci ilin yanvar ayında verilən elektrik enerjisinin miqdarı, elektrik enerjisi satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Verilən elektrik enerjisinin miqdarı (min kvt/saat) | Elektrik enerjisinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 3553 | 263,0 | 263,0 | 100,0 |
| 2. | Şərur rayonu | 2084 | 147,8 | 147,8 | 100,0 |
| 3. | Babək rayonu | 1637 | 116,6 | 116,6 | 100,0 |
| 4. | Ordubad rayonu | 896 | 63,6 | 63,6 | 100,0 |
| 5. | Culfa rayonu | 777 | 55,5 | 55,5 | 100,0 |
| 6. | Kəngərli rayonu | 699 | 50,3 | 50,3 | 100,0 |
| 7. | Şahbuz rayonu | 400 | 29,5 | 29,5 | 100,0 |
| 8. | Sədərək rayonu | 246 | 17,7 | 17,7 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14890 | 1337,1 | 1252,4 | 93,7 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **25182** | **2081,1** | **1996,4** | **95,9** |

**Qeyd:** Yanvar ayında texniki itki nəzərə alınmaqla daxil olan 25 milyon 182 min kilovat-saat elektrik enerjisinin dəyəri 2 milyon 81 min 100 manat olmuş, cəmi 1 milyon 996 min 400 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 95,9 faizini təşkil edir.

### Naxçıvan Muxtar Respublikası üzrə 2020-ci ilin yanvar ayında verilən təbii qazın miqdarı, təbii qaz satışından toplanan vəsait və ödənilmə faizi barədə məlumat

| S/№ | Şəhər və rayonlar | Təbii qazın həcmi (kubmetr) | Təbii qazın dəyəri (manat) | Daxil olan vəsait (manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Ordubad rayonu | 1890870 | 189228 | 189247 | 100,0 |
| 2. | Şahbuz rayonu | 944037 | 95979 | 95988 | 100,0 |
| 3. | Kəngərli rayonu | 1606889 | 161187 | 161200 | 100,0 |
| 4. | Culfa rayonu | 1931665 | 193167 | 193178 | 100,0 |
| 5. | Naxçıvan şəhəri | 5848684 | 590996 | 591019 | 100,0 |
| 6. | Şərur rayonu | 3456452 | 345785 | 345791 | 100,0 |
| 7. | Babək rayonu | 3905885 | 390883 | 390888 | 100,0 |
| 8. | Sədərək rayonu | 431766 | 43177 | 43177 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 14103224 | 2437061 | 2270110 | 93,1 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **34119472** | **4447463** | **4280598** | **96,2** |

***İtmişdir***

Quliyev Mehman Oktay oğlunun adına olan Naxçıvan şəhəri, Heydər Əliyev prospekti 7 ünvanında yerləşən qeyri-yaşayış sahəsinin MH-0020851 nömrəli çıxarışı itdiyindən etibarsız sayılır.

* * *

Novruzov Fizuli Rzaəli oğlunun adına olan 030906 nömrəli veteran vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 138